

# ŞƏRQ qapısı


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 98 (23.985)

27 may 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər.

Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonuna səfər çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış olublar. Məlumat verilib ki, bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir. Cəbrayıl rayonuna səfər zamanı Prezident İlham Əliyev Soltanlı stansiyasının təməlini qoyub. Həmin gün "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimi zamanı bildirilib ki, "Cəbrayıl" enerji qovşağının inşası nəticəsində Qarabağ və Şərqi Zəngəzurun yeni yaradılmış ötürücü elektrik şəbəkəsinin etibarlılığı və dayanıqlılığı artırılacaq. İkinci mərhələdə Naxçıvanın ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi üçün "Cəbrayıl" qovşaq yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə muxtar respublikanın Şahtaxtı kəndinə 255 kilometr məsafədə ikidövrəli olmaqla, 330 kilovoltluq ötürmə xətti çəkiləcək və 330 kilovoltluq "Şahtaxtı" yarımstansiyası tikiləcək. Üçüncü mərhələdə isə Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa enerji qovşağının yaradılması üçün Naxçıvanın Türkiyəyə yaxın ərazisində 330 kilovolta keçirmək üçün Avropa enerji standartlarına uyğun əlavə çevirici yarımstansiya inşa ediləcək və Naxçıvandan Türkiyəyə 230 kilometr məsafədə ikidövrəli 400 kilovoltluq elektrik verilişi xətti çəkiləcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sonra Zəngilan rayonuna səfər ediblər.

## Təbriz şəhərində 28 May – Müstəqillik Günü qeyd olunub

*28 May – Müstəqillik Günü münasibətilə Təbriz şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğu tərəfindən qəbul təşkil edilib.*

Qəbulda İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin ostandarı Zeynəlabedin Rəzəvi Xorrəm, Ərdəbil valisinin siyasi, təhlükəsizlik və ictimai məsələlər üzrə müavini Reza Qasemyan və digər rəsmi şəxslər, yerli mətbuat və ictimaiyyət nümayəndələri, Təbrizdə yaşayan Azərbaycan vətəndaşları iştirak ediblər.

Dövlət himnləri səsləndikdən sonra Baş konsul Əliyənnağı Hüseynov çıxış edib. Çıxışda qeyd olunub ki, bu il müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104 illiyi tamam olur. İki ilə yaxın mövcud olmuş bu dövlət zəngin dövlət quruculuğu təcrübəsi ilə Azərbaycanın milli dövlətçilik tarixində silinməz izlər qoyub. 1991-ci il oktyabrın 18-də Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa edib.

Dünya birliyi tərəfindən tanınan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycan beynəlxalq hüququn



subyekti olub, 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra süquta uğrayıb. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını yenidən ucaldan və Azərbaycan xalqının əbədi müstəqilliyini təmin edən dahi şəxsiyyət isə xalqımızın ümummilli lideri Heydər Əliyev oldu. Ulu öndərin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərara əsasən Azərbaycanın müstəqilliyinin əsas atributlarından olan üçrəngli bayraq qəbul olundu və bu bayraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda yüksəldi.

"Siyasi təcrübə onu göstərdi ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir. Danılmaz faktdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində yenicə müstəqillik əldə etmiş Azərbaycan daxili və xarici faktorların təsiri ilə dağılmaq ərəfəsində idi. Lakin dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışı bunun qarşısını aldı. Ulu öndər ölkədə sabitliyi bərpa etdi, sosial-iqtisadi tənəzzülün qarşısını aldı, uğurlu xarici siyasət kursu müəyyənləşdirdi", – deyə Baş konsul vurğulayıb.

Qeyd olunub ki, bu gün ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və reallıqlarına uyğun davam etdirilir. Azərbaycan beynəlxalq aləmdə turizm, tolerantlıq diyarı, idman ölkəsi olmaqla yanaşı, eyni zamanda innovasiyalar və informasiya-kommunikasiya texnologiyaları ölkəsi kimi də tanınmaqdadır. 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsi nəticəsində 30 ilə yaxın erməni işğalı altında qalan Qarabağ azad edildi. Artıq Azərbaycan ikinci ildir ki, 28 May – Müstəqillik Gününü öz ərazi bütövlüyünü təmin etmiş qalib dövlət kimi qeyd edir.

İranın Şərqi Azərbaycan Vilayətinin ostandarı Zeynəlabedin Rəzəvi Xorrəm çıxış edərək Müstəqillik Günü və Azərbaycan Respublikasının ərazilərinin azad edilməsi münasibətilə təbriklərini çatdırıb. Çıxışda mədəni, tarixi və dini ortaqlıqlar ilə iki ölkə xalqlarının bir-birinə bağlılığı, İranın Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğu diqqətə çatdırılıb. İki ölkə arasında bir çox sahələrdə yaxşı əlaqələrin mövcudluğunu qeyd edib. Bakıda keçirilən İran-Azərbaycan müştərək iqtisadi komissiyasının iclasında da bir çox sahələrdə, o cümlədən nəqliyyat, maliyyə, bank, kommunikasiya və digər sahələrdə razılaşmalar əldə edildiyini bildirib.

Sonda Müstəqillik Günü ilə bağlı videoçarx nümayiş olunub. Tədbir bədii hissə ilə davam edib.

**AZƏRTAC**

## İstehsalat təcrübəsini başa vuran tələbələrlə görüş keçirilib



*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində istehsalat təcrübəsini başa vuran tələbələrlə görüş keçirilib.*

Tədbiri giriş sözü ilə iqtisadiyyat naziri Tapdıq Əliyev açaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 25 iyun tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə bağlı tədris müddəti ərzində təhsil alan tələbələrin təcrübə keçmələri üçün zəruri işlər görülüb. Vurğulanıb ki, bundan sonra iqtisadiyyatın müxtəlif sahələri üzrə praktik bilik və bacarıqlara yiyələnmiş kadrlara artan tələbatı ödəmək məqsədilə kadr hazırlığına diqqət artırılacaq, qarşılıqlı əməkdaşlıq imkanlarından daha səmərəli istifadə ediləcəkdir. Diqqətə çatdırılıb ki, əməkdaşlığın ən yüksək səviyyədə davam etdirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində mümkün olub. Əminliklə demək olar ki, İqtisadiyyat Nazirliyində istehsalat təcrübəsi keçən tələbələr bu təcrübədən layiqincə yararlanacaq, ölkəmizin, o cümlədən muxtar respublikamızın gələcək iqtisadi inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklər.

Görüşdə Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin İqtisadiyyat fakültələrinin dekanları Əşrəf Ələkbərov və Zakir Məmmədov çıxış edərək istehsalat təcrübəsinin tələbələrin biliklərinin zənginləşdirilməsi, gələcəkdə karyeralarının formalaşması baxımından əhəmiyyətli olduğunu bildiriblər. İstehsalat təcrübəsinin tələbələrə universitetdə qazandıqları bilikləri praktik olaraq tətbiq etmək imkanı yaratdığını vurğulayaraq bu imkandan səmərəli istifadəni tövsiyə ediblər.

Qeyd edək ki, istehsalat təcrübəsi ərzində hər iki ali təhsil ocağının İqtisadiyyat ixtisası üzrə təhsil alan tələbələr nazirliyin müxtəlif struktur bölmələrində mövcud iş prosesi ilə tanış olublar. Nazirliyin əməkdaşları tərəfindən 55 mövzu üzrə praktik məşğələlərdə tələbələrin iştirakı təmin edilib. Hazırlanmış təcrübə proqramına əsasən praktik məşğələlər aparılıb, tələbələr iqtisadiyyatın ayrı-ayrı sahələrini əhatə edən mövzular ilə bağlı geniş məlumatlar qazanıblar.

Həmçinin tələbələr "Naxçıvan Duz İstehsalı", "Badamlı Mineral Sular", "Ləzzət Biskvit və Şokolad Fabriki", "Gəmiqaya Qida Məhsulları", "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərinin istehsal prosesi və Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal edilən məhsullar və yerli sənətkarların əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Nazirlikdə istehsalat təcrübəsi keçən tələbələrdən Fuad Nəcəfzadə, Nihad Heydərli və Rəbbi Səfərli göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

*Muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafı Culfa rayonunu da yeni inkişaf mərhələsinə çıxarıb. Son illər bu bölgədə də həyata keçirilən abadlıq və quruculuq işləri hesabına rayon görkəmini dəyişib. Bu il də rayonda geniş quruculuq işləri aparılır.*

## Culfa rayonunda quruculuq estafeti davam edir



Həmin ünvanlardan biri Culfa Rayon İcra Hakimiyyəti üçün tikilən inzibati binadır. Binanın tikintisinə ötən ilin sonlarından başlanılıb. Ulu öndərimiz Heydər Əliyevin adını daşıyan prospektdə inşa olunan yeni bina zirzəmi ilə birlikdə beş mərtəbədən ibarət olacaq. Binanın tikintisi Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Culfa Rayon İdarəsinin inşaatçılarına həvalə edilib. Keyfiyyət amilinə xüsusi diqqət yetirən inşaatçılar zirzəmidə və binanın birinci mərtəbəsində əsas divarların tikintisini başa çatdırıb, ikinci mərtəbənin qəlib-beton işlərinə başlayıblar.

Hazırda rayon Baytarlıq İdarəsi üçün də yeni inzibati bina inşa olunur. Bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq. Burada iş otaqları, süni mayalanma avadanlıqlarının və dərmanların saxlanc otaqları, laboratoriya, patoloji materialların qəbulu otağı, serologiya və bakteriologiya, süni mayalanma şöbələri, baytar həkimi, süni mayalanma texniki, epizootik həkim və sahə baytar məntəqəsi üçün otaqlar olacaqdır.

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsi kimi əhalinin rifahının və kommunal-məişət şəraitinin yax-



şılaşdırılması diqqətdə saxlanılır, yaşayış məntəqələrində yeni içməli su sistemləri qurulur. Bu tədbirlərin davamı kimi Culfa rayonunun ən böyük yaşayış məntəqəsi olan Yaycı kəndini içməli su ilə təmin etmək üçün ötən ilin avqust ayından başlanılan içməli su şəbəkəsinin qurulması layihəsi üzrə işlər uğurla davam etdirilir.

Daha bir inşaat obyekti "Culfa" yarımstansiyasıdır. Belə ki, bu yarımstansiya yenidən qurulur.

**Alim AĞAYEV**

# Naxçıvan məktəbliləri *“Teknofest Azərbaycan”*da

*Son illər muxtar respublikamızda aparılan uğurlu təhsil siyasətinin nəticəsidir ki, Naxçıvan məktəbliləri və tələbələr bu günlərdə qardaş Türkiyənin təşkilatçılığı ilə keçirilən 4 günlük festivalda fəal iştirak ediblər. Türkiyə Teknoloji Takımı Vakfı (T3 Vakfı), Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı ilə mayın 26-29-da Bakıda ilk dəfə olaraq Bakı Kristal Zalı və ətrafındakı Dənizkənarı bulvar ərazisində keçirilən festivalda Naxçıvan Muxtar Respublikasının da nümayəndə heyəti iştirak edib.*

Biz də “Şərq qapısı” qəzeti olaraq festival iştirakçılarının təəssüratlarını sizinlə bölüşürük. Məlumat üçün bildirək ki, festivalda qardaş Türkiyə Respublikasının rəsmi nümayəndə heyətilə yanaşı, ölkəmizdən də bir çox rəsmi şəxslər iştirak edirdi. ***Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayev***in Naxçıvanı təmsil edən komandaların layihələri ilə bağlı fikirlərini öyrəndik: “Sevinirik ki, naxçıvanlı şagird və tələbələrimiz də “Teknofest Azərbaycan” festivalında uğurla çıxış edirlər. Naxçıvan Muxtar Respublikasında təhsil üzrə verilən qərarlar bizi ürəkdən sevindirir. Çünki ən qısa zamanda Naxçıvanda STEAM dərsləri keçilməyə başlandı. Naxçıvanlı şagirdlər bu dərslərdən yaxşı nəticələr əldə etdilər. İnanırıq ki, Naxçıvan məktəbliləri gələcəkdə də belə festivallarda yaxşı layihələrlə iştirak edərək daha uğurlu nəticələr qazanacaqlar”.





***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Murad Babayev:*** – Naxçıvan məktəbliləri 3 aya yaxındır ki, bu festivala hazırlaşır. Gözəl nəticələr əldə etdilər. 3 ay müddətində üç mərhələli müsabiqələr təşkil olundu. Məktəblilərimiz yüksək qiymətləndirilərək öz layihələriylə festivala iştirak hüququ qazandılar. Biz bu gün üç komanda şəklində festivalda iştirak edirik. Düşünürəm ki, bu festival şagirdlərimizə böyük bir təcrübə qazandıracaqdır. Onlar həm elmi, həm texniki tərəfləri daha dərindən öyrənmək imkanı əldə edəcəklər. Texnologiyaya maraqları daha çox artacaq. Qeyd edim ki, Naxçıvan məktəbliləri bundan əvvəl də keçirilən ölkə səviyyəli yarışlarda, robotexnika, STEAM layihələrində də yüksək nəticələr əldə ediblər. İnanırıq ki, sonuncu müsabiqədə də uğurlu nəticə qazanaraq Naxçıvana qalib adı ilə qayıdacaqlar.

***Culfa Rayon Təhsil Şöbəsinin metodisti Fuad Babayev:*** – Culfa şəhər 3 nömrəli tam orta məktəbin 3 şagirdinin “Yol təhlükəsizlik sistemi” adlı layihəsi ilə festivala qoşulmuşuq. Festivalda Naxçıvanı 7 şagird təmsil edir. Əlavə olaraq, layihə rəhbəri kimi 3 müəllim 3 layihə ilə – “Kəşf robotu”, “Yol təhlükəsizlik sistemi” və “Heyvandarlıq təsərrüfatında avtomatik yemləmə sistemi” layihələri ilə iştirak edirlər. Bu gün bu layihələr insanlar üçün yararlı bir layihədir. Buraya gələn bütün tamaşaçılar bizim layihələrimizə böyük maraqla baxırlar. Şagirdlərimiz də öz ideyaları üzərində qurulan layihələri haqqında tamaşaçılara düzgün şəkildə məlumat çatdırırlar.

***Culfa şəhər 3 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Turan Əlisoy:*** – Biz bu layihəyə “Young İnventers” komandası olaraq qatılmışıq. Layihəmizin adı “Yol təhlükəsizlik sistemi”dir. Bu sistemin əsas mahiyyəti kəskin dönüşü olan yollarda, dağ ətəklərində qəzaların qarşısını almaqdan ibarətdir. Bu gün final mərhələsində iştirak edirik. Ümidvaram ki, Naxçıvana sevinclə qayıdacağıq.

***Naxçıvan Qızlar Liseyinin 8-ci sinif şagirdi Səidə Əliyeva:*** – Bu gün “Teknofest Azərbaycan” festivalında “Analitik” komandasının üzvü olaraq iştirak edirəm. Layihəmiz “Avtomatik qidalandırıcı qurğular”dır. Layihəmizin əsas məqsədi insan əli toxunmadan heyvanların qidaya olan ehtiyacını ödəməkdir. Ümid edirik ki, yarışmada yer tutub Naxçıvanımıza qalib kimi geri dönəcəyik.

***Naxçıvan Qarnizonu tam orta məktəbinin 9-cu sinif şagirdi Oğuz Nəcəfli:*** – Mənim layihəm kəşfiyyat robotudur, hərb sahəsində istifadə olunur. Bu da ona bir çox üstünlük verir. Kəşfiyyat robotunun əsas funksiyalarından biri onun üzərindəki kameranın 180 dərəcə dönə bilməsi və görüntü götürərək onlayn şəkildə mərkəzə ötürə bilməsidir. Bundan əlavə, robot qarşısına çıxan hər hansı bir partlayıcı cihazı və ya metalı aşkar edə bilir. Onu da qeyd etmək istərdim ki, festivalda iştirak etmək bu sahəyə marağımı daha da artırdı. Çalışacağam ki, yeni və əhəmiyyətli layihələr üzərində işləyərək daha böyük layihələrdə iştirak etmək hüququ qazanım.

***Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Kamal Qafarov:*** – Bu tədbiri muxtar respublikamızdan təmsil edən “Analitik” komandasının kapitanıyam. Bu möhtəşəm festivala kənd təsərrüfatına, aqrar sahəyə yararlı olacaq bir layihə ilə qatılmışıq. Festivalda iştirak etdiyim üçün çox sevincliyəm. İnanırıq ki, layihəmiz festivalda yer tutacaq. Təşkilatçılara minnətdarlığımı bildirirəm.



***“Naxçıvan” Universitetinin Kompüter mühəndisliyi üzrə I kurs tələbəsi Oğuz Məmmədov:*** – Festivalda Kompüter mühəndisliyi ixtisasının tələbələrinin ixtirası olan dron nümayiş edilir. Dron uçmaqla yanaşı, hərbi və karqo məqsədlidir. Onun funksiyası təhlükəli ərazilərdə olan minaların aşkarlanmasında və onların təsbit olunmasında ibarətdir. Digər funksiyası isə şəhərdaxili karqo xidməti göstərməkdir. Karqo xidməti dronun aşağı hissəsinə yerləşdirilən platforma vasitəsilə yerinə yetirilir. Düşünürəm ki, insan əməyinin yüngülləşdirilməsi və enerjiyə qənaət baxımından bu texnologiya əlverişlidir.

*Biz də festivalda məktəblilərimizin əhəmiyyətli uğur qazanacağına böyük ümidlə onlara müvəffəqiyyət arzu edirik.*

**Gülcamal TAHİROVA**
***26 may, Naxçıvan-Bakı***



***O, ədəbi ictimai fikrimizdə romantizm ədəbi məktəbinin istedadlı nümayəndəsi, nasir, publisist və milli istiqlal şairidir. Onun yaradıcılığı Vətən, millət nidaları ilə yoğrulub. Vətəninin sevincinə sevinən, kədəri, qəmi ilə ürəyi dağlanan, çiyinlərində Vətən yükünü daşımaqdan heç yorulmayan, azadlıq və istiqlaliyyət uğrunda apardığı mübarizədə canını fəda edəndir o. Bilirdi ki, bir millətin varlığının göstəricisi onun müstəqil dövlətidir. O, istiqlal, azadlıq mücahidimiz, Dövlət himnimizin sözlərinin müəllifi, yaradıcılığı ilə bütün türk xalqlarının könlündə böyük yer edən Əhməd Cavaddır.***

*Əhməd Cavad – 130*

## İstiqlal poeziyamızın bayraqdarı:

# “Öpüm kölgən düşən mübarək yeri...”

Adının mənası kimi bütün xalqımız üçün tərifəlayiq, şanlı, uğurlu bir yolun başlanğıcını qoydu. Bu yolda aldığı təhsilin mühüm rolu olub. İlk təhsilini mollaxanada alıb, ailəsi ilə birgə Gəncəyə köçdükdən sonra ruhani seminariyasında təhsilini davam etdirib. Seminariyanın müəllimləri – Hüseyn Cavid, Abdulla Sur, Şeyxülislam Pişnamazzadə kimi dövrünün tanınmış simaları ona yalnız dərs vermir, həm də milli vətənpərvərlik ruhunu aşılayırdılar. Görkəmli ədəbiyyatşünas, naxçıvanlı şair, yazıçı, dramaturq Hüseyn Cavidin şeirləri Əhmədi də yazmağa ruhlandırır və o, ilk şeirlərini elə seminariyada oxuyarkən qələmə alır. Türk xalqlarının düşdüyü vəziyyət və gələcəyi barədə seminariyada gedən söhbətlər Əhməd Cavadı da düşündürür, onu bütün varlığı ilə milli istiqlal yolunda mücadiləyə səsləyir. Bu, seminariyada ərəb, fars, rus dillərini mükəmməl öyrənən şairin yüksək istedada malik, Vətənini, xalqını bütün qəlbi ilə sevən bir türk oğlu olmağından irəli gəlirdi. Odur ki, XX əsrin əvvəllərində türklərin düşdüyü ağır vəziyyət onu ciddi narahat edir və tanınmış şair və pedaqoq Abdulla Şaiqlə birlikdə könüllü əsgər kimi İstanbulda qurulan “Qafqaz könüllü hissəsi” sıralarına qatılır. 1914-cü ildə başlanan Birinci Dünya müharibəsinin gedişində Türkiyənin Şərq cəbhəsindəki döyüşləri uğursuzluqla nəticələnir, Qars və Ərzurum əhalisi rus və erməni dəstələri tərəfindən qırğına məruz qalır. Tərkibində Əhməd Cavadın da olduğu Azərbaycan Xeyriyyə Cəmiyyəti Türkiyənin şərq vilayətlərindəki əhaliyə yardım edir. O, qardaş xalqın qarşılaşdığı ürək parçalayan mənzərələri bəzi şeirlərində dilə gətirir. 1917-ci ildə Bakıda yazarları Hüseyn Cavid, Abdulla Şaiq, Ömər Faiq Nemanzadə, Əhməd Cavad, Salman Mümtaz, Məmməd Səid Ordubadi, Əbdürrəhim bəy Haqverdiyev və digərləri olan “Qardaş köməyi” jurnalı nəşr olunur ki, burada türk xalqlarının düşdüyü çarəsiz vəziyyət, yurdundan-yuvasından didərgin düşmüş, məşəqqətli qaçqın həyatı sürən, min bir iztiraba düçar olmuş insanlara vicdanlı ziyalıların mənəvi və maddi yardımı öz əksini tapır.

Əhməd Cavadın türk xalqına məhəbbət hissini tərənnüm edən şeirlərindən biri də 1914-cü ilin noyabrında qələmə aldığı “Çırpınırdı Qara dəniz” şeiridir. Üzeyir Hacıbəyovun 1918-ci ildə Qafqaz İslam Ordusu Bakını azad etdikdən sonra musiqi bəstələdiyi bu şeirin Türkiyədə sevilmə səbəblərindən biri də şairin türkçülüyü, Türk dünyasına rəğbəti, sevgisi ilə bağlıdır. Bu, şairin ikinci şeir kitabı olan “Dalğa”da da dərc olunub:

*Çırpınırdı Qara dəniz*
*Baxıb türkün bayrağına!*
*“Ah!..” deyərdim, heç ölməzdim*
*Düşə bilsəm ayağına!*

1918-ci ildə Azərbaycan və türk birlikləri Bakını erməni-rus işğalından azad edir. Əhməd Cavad azərbaycanlı və türk əsgər yoldaşları ilə səngərlərdə düşmənlə vuruşur. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını sevinclə qarşılayan Əhməd Cavad müstəqil dövlətimizin himnini – “Azərbaycan marşı”nı yazır. Ürəyimizin sevincinə, soydaşlarımızın həmrəyliyinə, qüruruna çevrilən himnimiz Vətənə, xalqa dərin sevginin nümunəsi kimi qürurla səslənir:

*Azərbaycan, Azərbaycan!*
*Ey qəhrəman övladın şanlı Vətəni!*
*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz.*
*Üçrəngli bayrağınla məsud yaşa!*

Dilimizin əzbəri, ruhumuzun qidası olan himnimiz barədə ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***“Azərbaycanın gözəl himni var. Sevindirici haldır ki, bu himn hələ 1918-ci ildə yazılıb. Bunun müəllifi bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyovdur. Himnimizin sözlərini böyük şairimiz Əhməd Cavad yazıb. Onun musiqisi də çox gözəldir, sözləri də çox mənalıdır, gözəldir. Mən xarici ölkələrə səfər edərkən hər yerdə iki himn çalınır – Azərbaycanın himni, bir də getdiyimiz ölkənin himni. Hər ölkənin himni özünə əzizdir. Öz xalqının musiqisini, mənəvi xüsusiyyətlərini əks etdirir. Bu, təbiidir. Ancaq mən hər yerdə müqayisə edib görürəm ki, bizim himn müəllifləri bu himni nə qədər böyük məharətlə yaradıblar. Hər dəfə xarici ölkələrdə bu himni dinləyərkən mən yenidən iftixar hissi duyuram”.***

1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu milli himnimizi qəbul etməyə imkan verməsə də, bu şansı tarix bizə ikinci dəfə – XX əsrin sonlarında təkrar verdi. Həmin marş “Azərbaycan Respublikasının Dövlət Himni haqqında” 1992-ci il 27 may tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edildi.

Əhməd Cavadın 28 May – İstiqlal Günü (Müstəqillik Günü) münasibətilə hürriyyət pərisinə müraciət etdiyi “Nədən yarandın?” şeiri son dərəcə lirikdir:

*Sən qüdrətin aşıb-daşan vaxtında*
*Mələklərin gülüşündən yarandın.*
*Səhər dilli bir fırçanın əlilə*
*Ahuların duruşundan yarandın..*

Əhməd Cavad yaradıcılığında üçrəngli bayrağımıza sevgi, məhəbbət hissləri çox böyükdür. Şairin Azərbaycan bayrağına ithaf etdiyi şeirdə onun üçrəngli, ay-ulduzlu bayrağımıza böyük sevgisinin bədii ifadəsidir:

*Köksümdə tufanlar gəldim irəli,*
*Öpüm kölgən düşən mübarək yeri!*
*Allahın yıldızı, o gözəl pəri,*
*Sığınmış qoynunda Aya, bayrağım!*

Şeirləri ilə türk xalqlarının, doğma Azərbaycanın apardığı istiqlal mübarizəsinə xidmət göstərən şairin qələmi minlərlə süngüyə bərabər oldu. Əhməd Cavadın “İstiqlal uğrunda şeirlər” kitabı 1928-ci ildə İstanbulda işıq üzü gördükdən sonra mətbuatda onun əleyhinə hücumlar başlayır. Yazıçılar İttifaqının plenumlarında şairi kəskin tənqid edir, 1937-ci ildə onu üzvlükdən çıxarırlar. Sonra həbs edilir, ona “xalq düşməni” damğası vurur, evini müsadirə edirlər. Azərbaycanı müstəqil, doğma xalqını xoşbəxt görmək istəyən Əhməd Cavad 1937-ci il oktyabrın 13-də güllələnir. Şairin həyat yoldaşı Şükriyyə xanım “Vətən xaininin arvadı” kimi uşaqları ilə birgə həbs olunur. Yeddi ildən sonra sürgündən azad edilsə də, ona Bakıda yaşamaq qadağan olunur. Yalnız 1955-ci ildə ailə bəraət alır. Emin Sabitoğlunun bəstələdiyi “Şükriyyə” mahnısı Əhməd Cavadın həyat yoldaşına həsr etdiyi, qəlbindəki hisslərin ən ülvi tərənnümüdür.

Hüseyn Cavid və Əhməd Cavad kimi milli şairlərimizin yaradıcılığına, sözün həqiqi mənasında, bəraət verilməsi yalnız ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Ulu öndərimizin qəbul etdiyi 1996-cı il 15 mart tarixli “Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə yüz minlərlə günahsız insana, siyasi repressiyaların qurbanlarına bəraət verilməsi, onların siyasi, sosial və vətəndaşlıq hüquqlarının bərpa edilməsi, mənəvi itkilərinin əvəzinin ödənilməsi, həmçinin özbaşınalığın başqa nəticələrinin aradan qaldırılması üçün hüquqi əsasları müəyyən etmişdir.

Əsərlərində istifadə etdiyi vəzn, üslub və dil xüsusiyyətlərinə görə Azərbaycan ədəbiyyatında “Cavad ədəbi məktəbi”ni yaradan “Açın qəlbin qubarını, baxın nədir baş yazısı: Əvvəl Allah göndərəndir, sonra türkün bayatısı!” – deyən Əhməd Cavad Azərbaycanın böyük vətənpərvər şairi kimi xalqımızın qəlbində yaşayır və yaşayacaqdır. O, Azərbaycan tarixində heç zaman ölməyəcəyini də bilərək deyirdi:

*Bən bir aşiqim ki, bu çaldığım saz*
*Dumanlı dağlara səs salacaqdır.*
*Ağlatdığım teldə inləyən avaz*
*Elin xatirində çox qalacaqdır...*

Əhməd Cavadın anadan olmasının 130-cu ildönümünün dövlət səviyyəsində qeyd olunması haqqında Prezident cənab İlham Əliyevin 2022-ci il 20 aprel tarixli Sərəncamı, eləcə də yubileyinin Naxçıvan Muxtar Respublikasında təntənəli keçirilməsini təmin etmək məqsədilə Ali Məclisin Sədri tərəfindən təsdiq edilən “Tədbirlər Planı” böyük istiqlal şairinin yaradıcılığına verilən yüksək qiymətin bariz nümunəsi, həmçinin onun həyat və fəaliyyətinin yenidən araşdırılıb öyrənilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

**Güntac ŞAHMƏMMƏDLİ**

Yurdumuzun nemətləri

# Naxçıvanın brend meyvəsi – GÖYCƏ



***Naxçıvan Muxtar Respublikasının əlverişli torpaq-iqlim xüsusiyyətlərinə malik olması hələ qədim zamanlardan burada kənd təsərrüfatının mühüm sahələrindən biri olan meyvəçiliyin inkişafına zəmin yaratmış, burada müxtəlif meyvələrin yetişdirilməsi əhalinin məşğuliyyət sahəsinə çevrilmişdir. Son tədqiqatlara əsasən muxtar respublikada çəyirdəkli meyvə bitkilərinin növləri sistemli şəkildə araşdırılmış və bu növlərdən bir çoxunun təsərrüfat əhəmiyyətli olduğu qeyd edilmişdir.***

Çəyirdəkli meyvə bitkilərindən olan alça biokütləsinin miqdarı və əhəmiyyəti baxımından seçilir. Alça muxtar respublikada çəyirdəkli meyvələr içərisində ərik və şaftalıdan sonra daha geniş şəkildə becərilir. Tarixən xalq seleksiyaçıları özlərinə məxsus üsullarla ərazidə mövcud olan təsərrüfat əhəmiyyətli alça növlərindən bir çox yerli sortlar yetişdirmişlər. Bu sortlar ağacların xarici mühitə asan uyğunlaşması, meyvələrinin yüksək keyfiyyəti, məhsuldarlığına, xəstəliklərə, ziyanvericilərə qarşı davamlılığına görə sənaye və seleksiya nöqteyi-nəzərindən mühüm əhəmiyyətə malikdir. Hazırda ərazidə becərilən alça sortlarının genofondunun 72,2 faizi yerli, 27,8 faizi isə introduksiya olunmuş sortlardan ibarətdir.

Ərazidə becərilən morfoloji, bioloji xüsusiyyətləri ilə, eləcə də meyvələrin forması, rəngi, dadı, çəyirdəyin lətindən ayrılma dərəcəsi, meyvələrinin yetişmə vaxtı xəstəlik və ziyanvericilərə davamlılığına, məhsuldarlığına görə bir-birindən fərqlənən alça sortları vardır. Alçanın təsərrüfat əhəmiyyətli sortlarından göycə, yaz mələsi, yay mələsi, payız mələsi, qırmızı alça, ərəş, təbərzə sortları ərazidə digər sortlara nisbətən daha geniş şəkildə becərilir. Bu sortlar içərisində göycə, xüsusilə seçilir.



Bitkinin aktiv vegetasiya dövrünün çiçəklənmə fazasında temperatur bilavasitə bitkinin inkişafına təsir edən əsas amillərdən biridir. Zonalar üzrə becərilən sortun vegetativ və generativ orqanlarının inkişaf dinamikasında fərq olduğu müşahidə edilmişdir. Müşahidələr zamanı ərazidə alçanın generativ tumurcuqlarının ən tez açmağa başlaması martın üçüncü həftəsi, ən gec isə aprelin ikinci ongünlüyü dövrlərində qeydə alınmışdır. Relyef quruluşuna əsasən ərazidə yaz şaxtaları müxtəlif vaxtlarda müşahidə edilir. Göycə bitkisinin nisbi sükunət dövrü qısa olduğundan bəzi çiçək tumurcuqları yaz şaxtalarının təsirindən zədələnə bilir. Lakin qayıtma şaxtaları açılmış çiçəkləri vurmasına baxmayaraq, hələ butonizasiya fazasında olan çiçəkləri vura bilmir, məhz bu xüsusiyyəti göycənin hər il meyvə verməsinə imkan yaradır. Təhlillər göstərir ki, çiçəkləmə iqlim faktorlarından, yetişmə isə genetik əlamətlərdən asılıdır. Göycə digər meyvə sortlarına nisbətən ən tez tədarük olunur. Bu sort mayın ortalarından etibarən yeyilir. "Göycə" adının bu sorta verilməsi də bununla əlaqədardır. Göycə sözü Naxçıvan dialektinə aiddir. Göycə sözündəki "göy" sözü yeni, təzə mənasını ifadə edir.

Göycə Azərbaycanın bir çox rayonlarında becərilsə də, meyvəsinin dadına və keyfiyyətinə görə "Naxçıvan göycəsi" daha məşhurdur. Naxçıvan göycəsi daha iri, yetkin meyvənin ləti sulu və şirəli, lət hissəsi çəyirdəkdən nisbətən ayrılan, dadlı və öz tamı ilə seçilən qiymətli bir meyvədir. Meyvələrin qabığı qalındır, lət hissəsi sıxdır. Tam yetişdikdə ləti çox sulu olur və şirinləşir. Meyvələrin tərkibində şəkərlər, turşular, A, B1, B2, B9, C, E, P vitaminləri, mikroelementlərdən kalsium, kalium və fosfor vardır. İştahamızı artıran, yaz günlərinin dəyişməz rəmzi, yamyaşıl, girdə, turşməzə olan göycə hamı tərəfindən sevilir. Tibdə və dietologiyada da geniş istifadə olunur. Hipertoniya, qanazlığı olanlara faydalıdır. Susuzluğu tez yatırır və iştahaaçıcı vasitə hesab edilir. Birləşdirici toxumaları gücləndirir. Pəhriz əsnasında çəkinizin azalmasına, immunitet sisteminin güclənməsinə köməkçi olur. Stresə qarşı qoruyucudur və sakitləşdirici təsiri vardır. Ağız sağlamlığı üçün faydalıdır, xüsusilə diş ətlərinin güclənməsinə kömək edir. Xolesterinin səviyyəsini aşağı salır.



Ağacları 2,5-4,0 metr hündürlükdə, iriçətirli, yazda yarpaq açılmamışdan əvvəl çiçəkləyir. Cavan zoğları qırmızımtıl-şabalıdı rənglidir. Vegetativ tumurcuqları iri, uzunsov yastı formada, generativ tumurcuqlar isə nisbətən girdə formalı və şişkindir. Sort qələmlər ilə artırılır, həmçinin çox gözəl calaq tutur. Toxumları ilə artırıldıqda yalnız özü tozlananlar ana sorta məxsus əlamətləri saxlayırlar, əksər hallarda toxumdan cır alınır. Buna görə də sortu yalnız calaq üsulu ilə artırılır. Göycədə ən əlverişli calaq göz və yarma calaqları hesab edilir. Calaqetmədə alça, gavalı və badam ağaclarından istifadə olunur. Göycə üçün yaxşı calaqaltı gavalı olsa da, bu calaqdan alınan meyvələr nisbətən iri və şirin, amma ömrü az olur, badam ağacına calaq edildikdə isə ağaclar uzunömürlü olur. Ekspedisiyalar nəticəsində ərazidə uzun illərdən bəri təbii şəraitin, uzun müddət becərilmə hesabına xalq seleksiyası nəticəsində bu sortun üstün göstəricilərə malik formaları aşkar edilmişdir. Göycə ağacları sürətlə böyüyür, birillik zoğları müntəzəm inkişaf edir, mühit parametrləri normativə uyğun olduqda üçüncü ilində bar verir.



Göycə ağacı çınqıllı, daşlı və həddindən artıq bərk gilli torpaqları sevmir. Kökləri torpağın üst qatlarında olur, odur ki, bağlarda torpağın becərilməsinə xüsusi diqqət yetirilməlidir. Kifayət qədər rütubətlə təmin olunan torpaqlarda göycə ağacı yaxşı məhsul verir. Özündə suyu çətin saxlayan, zəif tərkibli torpaqda göycə yaxşı inkişaf edə bilmir. Meyvələr yetişənədək rütubətin azlığı məhsulun miqdarına və keyfiyyətinə təsir edir. Göycə muxtar respublikanın bütün rayonlarında becərilsə də, Naxçıvan şəhərində, Babək, Şərur və Ordubad rayonlarında yaxşı inkişaf edərək daha yüksək göstəricilərə malik məhsul verir. Muxtar respublikada göycə bağlarının ən böyük hissəsi Şərur rayonunun payına düşür. Ümumiyyətlə, Naxçıvanın əlverişli torpaq-iqlim şəraitinə malik düzənlik əraziləri göycə bağlarının salınması üçün perspektivlidir. Göycə ağacı məhsuldardır. Normal aqrotexniki becərilmə şəraitində hər il yüksək məhsul vermək xüsusiyyətinə malikdir. Bir ağacdan orta hesabla 45-50 kiloqram məhsul yığmaq mümkündür. Ağacda məhsul çox olanda meyvələr inkişaf edə bilmir, ölçüləri kiçik olur. Hər il ağaclar üzərində normal bar yükü saxlanılmalı, həmçinin iki ildən bir budanmalıdır. Göycə ağaclarına tam məhsula düşənə kimi istənilən formanı vermək mümkündür. Yağışlı havalarda göycə ağaclarının zərərvericiləri məhsulu daha tez məhv edə bilər. Buna görə də erkən yazda və çiçəklədən sonrakı dövrdə ağacları dərmanlamaq lazımdır. Məhsul verməyə bir ay qalmış dərmanlama dayandırılmalıdır ki, kimyəvi tərkib ağacın meyvəsinə təsir göstərməsin.

Göycə meyvəsi dadına, ətrinə və tərkibinə görə seçilir. Yetkin meyvələrindən hazırlanan meyvə qurusu, kompot, lavaşana və sair məhsullar istifadə perspektivi ilə diqqəti cəlb edir. Yazda insanların sevimli meyvəsi olmaqla qida rasionunda mühüm yer tutan göycə adı və dadıyla hər zaman Naxçıvanın simvolu olmuşdur. Heç bir bazarda göycə ilə rəqabət aparacaq analoji məhsul yoxdur. Azərbaycanda hər bir bölgənin özünəməxsus xüsusiyyətləri – etik dəyərləri, yaşam tərzi və qaydaları, o cümlədən yerli və ya beynəlxalq brend olmaq potensialı daşıyan məhsulları var. Muxtar respublikamızda göycə istehsalının artırılması ilə yanaşı, onun təbliği və tanıdılması da daim diqqət mərkəzində saxlanılır. Naxçıvanda ilk "Göycə" festivalı 27 may 2016-cı ildə keçirilmişdir. Bu ənənə hər il davam etdirilərək Naxçıvan göycəsi daha geniş şəkildə tanıdılır və qiymətləndirilir. Festivalın sonunda müsabiqə keçirilir və qaliblərə diplomlar təqdim olunur. Festival bu meyvəyə olan marağı hər il daha da artırır və onun dünya səviyyəsində bir brend kimi tanınmasında çox böyük əhəmiyyətə malikdir.

*İnanırıq ki, iyun ayının 4-5-də Naxçıvan şəhərindəki "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçiriləcək növbəti "Göycə" festivalı da qələbəliklə yadda qalacaq, bu sahə ilə məşğul olan təsərrüfatlar üçün əsl məhsul bayramına çevriləcək, Naxçıvanın bu brend məhsulunu sovqat etmək istəyən alıcılar üçün fürsət yaranacaq. Festivalda Naxçıvan şəhərindən və muxtar respublikanın bütün rayonlarından olan torpaq mülkiyyətçilərinin yetişdirdiyi müxtəlif növdə göycə məhsulları, o cümlədən göycədən hazırlanan əl işlərinin sərgi-satışı maraqla qarşılanacaq.*

**Orxan BAĞIROV**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, dosent***

## Əcnəbi tələbələr üçün maarifləndirici tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə əcnəbilərin hüquqi vəziyyətinə dair əcnəbi tələbələrlə növbəti maarifləndirici tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Dövlət Universitetinin prorektoru Xəyal Camalov və Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elnur Məmmədov, xidmətin şöbə rəisi Kənan Məmmədov və baş inspektoru Tural Bayramov çıxış ediblər. Çıxışlarda əcnəbi tələbələrə müvəqqəti yaşamaq üçün icazənin verilməsi proseduru barədə məlumat verilib.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq icazəsinin verilməsi ilə bağlı kifayət qədər geniş əsaslar mövcuddur. Eyni zamanda Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə vəsiqələrinin verilməsinə və müddətinin uzadılmasına görə dövlət rüsumu ödənilən zaman tələbələr üçün güzəştlər də tətbiq olunur ki, bu da ölkəmizdə əcnəbi tələbələrə göstərilən humanist mahiyyətin növbəti təzahürüdür.

Universitetin Tibb fakültəsinin Stomatologiya ixtisasının I kurs tələbəsi Osman Tan və həmin ixtisasın hazırlıq kursunun tələbəsi Muhamməd Dağgöl bu gün muxtar respublikada tam rahat, təhlükəsiz və ən yüksək səviyyədə təhsil aldıqlarını diqqətə çatdırıb, göstərdikləri köməyə görə əcnəbi tələbələr adından Dövlət Miqrasiya Xidmətinə minnətdarlıqlarını bildiriblər.

Sonra bir qrup əcnəbi tələbəyə müvəqqəti yaşamaq üçün icazə vəsiqələri təqdim edilib. Həmçinin tələbələrə xidmət tərəfindən hazırlanan bukletlər paylanılıb.

Maarifləndirmə tədbirinin yekununda əcnəbi tələbələrin Heydər Əliyev Muzeyinə ekskursiyası təşkil olunub. Muzeydəki eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu əks etdirmək baxımından tələbələrdə böyük maraq yaradıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Həkimlər üçün onlayn təlimlər təşkil edilib

Muxtar respublikada tibb işçilərinin ixtisasları üzrə təkmilləşdirilməsi istiqamətində görülən işlərin davamı olaraq 23-27 may tarixlərdə "Sinir sistemi xəstəlikləri zamanı təxirəsalınmaz vəziyyətlər" mövzusunda vebinar təşkil edilib. Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun təşkil etdiyi vebinarda Naxçıvan Muxtar Respublika Xəstəxanası, Doğum Mərkəzi və Uşaq Xəstəxanası publik hüquqi şəxslərinin 16-sı həkim-anestezioloq-reanimotoloq, 8-i isə təcili təxirəsalınmaz tibbi yardım və qəbul üzrə həkim olmaqla, ümumilikdə, 24 tibb işçisi iştirak edir.

Vebinarın keçirilməsində əsas məqsəd həkimlərin sinir sistemi xəstəlikləri zamanı ilkin yardımla bağlı biliklərinin təkmilləşdirilməsi və bu sahədə yeni biliklərin əldə edilməsi üçün müzakirələrin aparılması olub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## "Naxçıvan" Universitetinin tələbəsi beynəlxalq arenada uğur qazanıb




Naxçıvan karateçiləri Bolqarıstanın Albena Kranevo şəhərində keçirilən 12-ci Avropa Şotokan Çempionatında iştirak ediblər. Dünya Şotokan Federasiyasının təşkilatçılığı ilə keçirilən yarış 20-22 may tarixlərini əhatə edib. Çempionatda 8 yaşlı uşaqlardan tutmuş 53 yaşadək veteranlar və paralimpiyaçılar müxtəlif yaş və çəki kateqoriyaları üzrə mübarizə aparıblar. 16 ölkədən 422 karateçi tatamidə öz bacarığını nümayiş etdirib. Karatenin "kata", "şobu ippon", "şobu sanbon", "WKF kumite" üslublarında qaliblər müəyyənləşib.

Turnirdə iştirak edən "Naxçıvan" Universitetinin Bədən tərbiyəsi və idman ixtisası üzrə III kurs tələbəsi Rəşad Qasımov 3 kateqoriyada döyüşüb. "Şobu ippon" üzrə birinci olan Rəşad Qasımov digər üslublarda ilk üçlükdə qərarlaşıb.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

# Müstəqildir AZƏRBAYCAN

**Prezident İlham ƏLİYEV:** *Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də, belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.*

*Səma mənim, Ay mənimdir,*
*Dəniz mənim, çay mənimdir,*
*Qismət mənim, pay mənimdir –*
*Müstəqildir Azərbaycan.*

*Sərhədlərim öz əlimdə,*
*Meşə, dərə, düz əlimdə,*
*Dil əlimdə, söz əlimdə –*
*Müstəqildir Azərbaycan.*

*Dağlardakı qar da mənim,*
*Bağlardakı bar da mənim,*
*Mülk də mənim, var da mənim –*
*Müstəqildir Azərbaycan.*






*Əkən özüm, biçən özüm,*
*Əyri, düzü seçən özüm,*
*Bulağımdan içən özüm –*
*Müstəqildir Azərbaycan.*

*Tarixlərdə iz qoyaram,*
*Kürsülərdə söz qoyaram,*
*Torpağına üz qoyaram –*
*Müstəqildir Azərbaycan.*

*Əsarəti qına, Vətən!*
*Çatdı o gün sona, Vətən...*
*Gözün aydın, ana Vətən –*
*Müstəqildir Azərbaycan!*

**Vaqif MƏMMƏDOV**














ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 460